**MƏDƏNIYYƏT ÜZRƏ OT KÖKLƏRI QRANT YARDIMI PROQRAMI**



Biləsuvar rayonunda Karate və Cüdo
İdman Vəsaitlərinin Təkmilləşdirilməsi
Layihəsi.(Fevral 2010)

**Məqsədlər**

"Mədəniyyət üzrə Ot kökləri Qrant Yardımı" (MOKQY) proqramı inkişaf etməkdə olan ölkələrin qeyri-kommersiya fəaliyyəti ilə məşğul olan təşkilatları (qeyri-dövlət təşkilatları, yerli hakimiyyət orqanları, tədqiqat və ali təhsil institutları və s.) tərəfindən həyata keçirilən və sadə insanlara istiqamətlənən mədəniyyət və ali təhsil layihələrinə maliyyə dəstəyi vermək məqsədini daşıyır. MOKQY hər bir ölkədə sadə insanlar üçün mədəniyyət və ali təhsili birbaşa şəkildə həvəsləndirməklə yanaşı, həmçinin Yaponiya ilə digər ölkələr arasında mədəniyyət mübadiləsinin əməkdaşlıq vasitəsi kimi də çıxış edir.

**Kimlər müraciət edə bilər**

MOKQY proqramına qeyri-kommersiya fəaliyyəti ilə məşğul olan istənilən təşkilat müraciət edə bilər. Müraciət edən təşkilat qeyri-kommersiya xarakterli olub müvafiq ölkədə mədəniyyət və ali təhsilin (idman növləri də daxil olmaqla) sadə insanlar üçün həvəsləndirilməsi tədbirlərini həyata keçirməlidir (fərdi vətəndaşlar və kommersiya fəaliyyəti ilə məşğul olan şirkətlər müraciət edə bilməzlər).

Məsələn: regionlarda (milliyətindən asılı olmayaraq) aktiv olan QHT-lər, yerli hakimiyyət orqanları və qeyri-kommersiya fəaliyyəti ilə məşğul olan qurumlar (məsələn, universitetlər). Xüsusi hallarda, dövlət qurumları da müraciət edə bilərlər.

**Prioritet sahələr**

1. Yapon dili tədrisinin həvəsləndirilməsi
2. Yapon mədəniyyətinin (POP musiqi daxil olmaqla) həvəsləndirilməsi
3. Yapon milli idman və ya döyüş növlərinin həvəsləndirilməsi
4. Yaponiyaşünaslığın hər hansı bir sahəsinin həvəsləndiliməsi
5. Azərbaycanda mədəniyyətin qorunmasının həvəsləndirilməsi

Məsələn (aşağıda verilmiş siyahı tam deyildir və bütün sahələri əhatə etmir):

- Yapon dilinin tədrisi üçün avadanlıqlar
- Universitetlərdə yapon dili tədrisi üzrə fakültələrin yaradılması
- Teatrlar üçün səs və işıq avadanlığı
- İdman (döyüş növləri daxil olmaqla) dərnəkləri və təşkilatları üçün idman avadanlığı

- Qalereya və muzeylər üçün audio-vizual avadanlıqlar

**Qrant Yardımı**

MOKQY üzrə maliyyə il boyu təqdim olunan bütün ərizə formaları dəyərləndirildikdən və layihələr Yaponiya hökuməti tərəfindən bəyənildikdən sonra qrant üçün müraciət edən təşkilata təqdim olunur.

Hər bir layihəyə ayrılan qrantın miqdarı maksimum ¥10 milyon yendir (2010-cu maliyyə ili üçün təxminən $100,000 ABŞ dollarına qədər).

**Müraciət edən təşkilatların nəzərinə!** Aşağıdakılar qrant yardımı tərəfindən maliyyələşdirilmir:

- Təchiz olunan ləvazimat və avadanlıqların idari və təmir xərcləri
- Qrant üçün müraciət edən təşkilatın inzibati xərcləri

Müraciət etmək arzusunda olan təşkilatlar Səfirliyin veb-səhifəsindəki linkdən Ərizə Formasını yüklədikdən sonra, doldurulmuş və çap edilmiş formanı səfirliyə təqdim edə bilərlər.

**Diqqət!** Ərizə forması ingilis dilində doldurulmalıdır. Minimum standartlara cavab verməyən ərizələrə baxılmayacaqdır.

**Əlaqə məlumatı:**

Yaponiyanın Azərbaycan Respublikasındakı Səfirliyi
Hyatt Binası 3, 6-cı mərtəbə
İzmir küçəsi 1033 , AZ1065 Bakı, Azərbaycan

Telefon: +994 12 490 78 18
Faks: +994 12 490 78 20

E-poçt: hiroshi.seto@bk.mofa.go.jp